# Tahir Əmiraslanov böyük bir mübarizənin içərisindədi...




**Azpress.az saytı dövrümüzün tanınmış kulinarı Tahir Əmiraslanovun milli kulinariyamıza qarşı aparılan daxili və xarici hücumlardan bəhs edir. Yazının bird daha ictimai maraq doğuracağını nəzərə alaraq onu azerbaycan-ruznamesi.org-da dərc edirik.**

Böyük bir mübarizənin içərisindəyik. Moskvada bizim ruporumuz olan, 90 yaşlı "Qida və Cəmiyyət " jurnalı bir neçə il əvvəl bağlanıldı. Rəsmi və qeyri-rəsmi müraciətlərimizə baxmayaraq erməni plagiatına qarşı duran bu jurnala kömək edilmədi. Erməniyə qarşı durduğu üçün. Sonra lavaş erməni çörəyi kimi bir gün UNESKO-nun siyahısında oldu, o biri gün çıxarılıb, "Ermənistanda da bişirilən" -deyə yazıldı. Bir il sonra isə türklərin çörəyi anlamında siyahıda yer aldı.1990-cı ildən biz düşməni heç bir dünya tədbirinə, dünya təşkilatına buraxmadıq.

Dolmanı UNESKO-nun siyahısına salmağa başlayanda nə oldu? Ermənistan Mədəniyyət Naziri UNESKO-ya rəsmi məktubla müraciət etdi ki, T. Əmiraslanovun adı fayllardan çıxarılsın, çünki o, Ermənistanın düşməni və rasistdir. Müzakirə günü də düşmənlər UNESKO-da dolma uzərində deyil bu adın üzərində şüvən saldılar. Lakin Hörmətli

*Vitse-Prezidentimizin nüfuzu sayəsində dolma UNESKO-nun siyahısında ölkəmizin mədəni numunəsi kimi tanındı. Bu vaxt düşmən dövləti qarşısına ciddi məqsəd qoydu:*

1. T Əmiraslanovu, Milli Kulinariya Mərkəzini (AMKM) və Milli Kulinariya Assosiasiyasını (AMKA) ləkələmək, həm Azərbaycanda həm beynəlxalq aləmdə gözdən salmaq.
2. AMKA-nı parçalamaq, Ölkəmizdə alternativ qurumlar yaratmaqla AMKA-nın gücünü və sponsorlarını, yəni maliyyəsini dağıtmaq, onu zəiflətmək.
3. AMKM-ni dağıtmaq, onu vahid qüvvədən, parçalanmış vəziyyətə gətirmək, müasirlik adı ilə onu daha zəif bir quruma çevirmək, yaxud kökündən məhv eləmək. Hazırda bu məsələ ilə daha ciddi-cəhdlə məşğul olunur.
4. AMKA-nın və AMKM-in birgə fəaliyyətinin qarşısını almaq, onları tamam ayırmaqla gücdən salmaq.
5. AMKM və AMKA tərəfindən ölkəmizdə keçirilən böyük beynəlxalq festivalların qarşısını almaq, xaricdəki fəaliyyətini zəiflətmək.

Bu 5 məsələ hər gün həll edilir. Buna görə də Millətimizi, Ziyalılarımızı, dövlət Məmurlarımızı, İş Adamlarımızı bu məsələlərdə diqqətli olmağa səsləyirik. Hər bir qərardan əvvəl bu məsələlərdə bizimlə məsləhətləşmələrini rica edirik. Mediadan bu postumuzu və ardını paylaşmalarını xahiş edirik. Düşmən yatmır. İçimizdə, sapları özümüzdəndir.

***2019-cu il***

* * *

***Ekber Mammadov***

*Ermənilərə hələlik tam qalib gəldiyimiz yeganə sahə.*

***Fizuli Huseynov***

*Bu çətın yolda Uğurlar sizə sizə hər mənada dəstək olmağa hazırıq*

***Aynur Suleymanli***

*Bu cetin ve serefli yolda size ugurlar arzu edirem. Allah ezminizi ele menfur dusmenlerin qarsisinda dahada guclu etsin InşaAllah*

***Ксеял Аббасзаде***

*Tahir muellim, sapi ozumuzden olmasa, hec vaxt bir shey etmeye gucu yetmez. "Sap"lari zerersizleshdirmek lazimdir. hedefimiz onlar olmali!*

***Tahir Amiraslanov***

*Razıyam. Görünən saplarla yenə mübarizə aparırıq. Amma bu sapların, biznesmenlərdən, dövlət məmurlarından ibarət görünməyən, xəlvətı ya açıq dəstək verən Çüyləri, Pazları var ki, onlarla mübarizə çox çətindir. Üzdən dost kimi görünürlər.əslində isə ya ... ya da...*

***Рамин Агаев***

*bugünkü günə qədər bizim miİi kulinariya mərkəzi çox zeyif fəal göstərir. ona gore ki Erməni dağları bizim kulinariya zeyif fəallığı mizi görüb. bizim mətbexmize mıllı sərvətimiz medenyetmiz olan olan yemeylarmizi oğurlayıb ozunki edib dünyaya tanitdrib Ama biz oturub gozmuzu doyuruk*

***Kamala Kerim***

*Men bir neche gun bundan qabaq dahi Uzeyir bey Hacibeylinin eserini mudafieye ve qorumaqa seslendim, sesime ses veren 2 nefer Azerbaycanli oldu. TESSUF BIGANELIYE*

***Resmiyye Allahverdiyeva***

*Siz sengerde ermeni ile uz uze dayanan ordumuzun bir esgeri kimi daim Azerbaycani ve Azerbaycan heqiqetlerini butun dunyaya tanidan, bu yolda silahsiz,sursatsiz doyusen veten oqullarimizdan birisiniz. Teskatiniz, belke de teskilatimiz desem daha duzgun olar, cunkiAMKM yarandiqi gunden bu vetene,*

*bu millete qulluq etmisdir. Biz her zaman Sizin yaninizdayiq ve Sizin gucunuze inaniriq. Qoy kimsesizler kimsesi Sizi qorusun. AMIN*

***QEYD. Başlıqlar "Facebook" sosial şəbəkəsindəki başlıqla eynilik təşkil edir.***